# FƏRQLİ LİDER,

*Xalqlar da insanlar kimidir...*

*Daim inkişaf edir, çətinliklərlə rastlaşır, uğurlar qazanır, müəyyən sınaqlardan çıxırlar.*

Əslində, xalq hər hansı bir ərazidə yaşayan, eyni etnik xüsusiyyətlərə malik insanlar toplusudur.

**Hər bir inkişaf mərhələsində insanlar arasında fərqlənənlər, seçilənlər olur.**

**Sonra bu seçilənlər seçilmişlərə, liderlərə, sərkərdələrə və rəhbərlərə çevrilirlər.**

Həmin lider və rəhbərlər xalqların, yaradılan dövlətin inkişafında xüsusi işlər görür, inkişafı sürətləndirir, həllolunmaz görünən problemləri həll edir, yeni səviyyəyə yüksəltdikləri xalqların sevimlisinə çevrilirlər.

*Belə lider və rəhbər digər xalqlar və dövlətlər tərəfindən də qəbul olunur, hörmətlə qarşılanır, dünyada daha aydın görünənlərə və fərqlənənlərə - regional və qlobal liderlərə çevrilirlər!*

❖ ❖ ❖

**İlham Əliyev ağır daşları tərpətməyi bacaran liderdir!**

**İlham Əliyev həm də ağır daşların tərpənməsindən yaranan təlatümlərin qarşısını almağı bacaran liderdir!**

**İlham Əliyev nəyi nə vaxt və necə etməyi də dəqiq hesablayan və icra edən liderdir!**

- Liderlik təkcə öyrənmə, tərbiyə yolu ilə yaranmır...
- Liderlik, əslində, xarakterdir, xüsusi bacarıq və istedaddır!
- Liderlik vergidir, xarizmadır!

*İlham Əliyev 2003-cü ildə birinci dəfə Azərbaycanın Prezidenti seçiləndə ölkədə kifayət qədər həllini gözləyən problemlər mövcud idi...*

**Ulu Öndər Heydər Əliyev qurtuluş missiyasını şərəflə yerinə yetirərək bir çox həlli müşkül məsələni yoluna qoymuşdu:**

- Ən əvvəl, Azərbaycanı bir dövlət kimi parçalanmadan, məhvolmadan qurtarmışdı.
- İki dəfə - 4 oktyabr 1994-cü ildə və 13-18 mart 1995-ci ildə dövlət çevrilişlərinə cəhdlərin qarşısını almış, ölkədə möhkəm və dönməz sabitlik yaratmışdı.
- Əhalidəki külli miqdarda silah-sursat toplanmış, "hərbi müxalifət" ləğv edilmişdi.
- 1994-cü ilin yanvarında Horadiz əməliyyatı keçirilərək Horadiz qəsəbəsi daxil 20-dən çox yaşayış məntəqəsi düşmən işğalından azad olunmuşdu.
- "Əsrin müqaviləsi" imzalanaraq Azərbaycanın gələcək iqtisadi inkişafının təməli qoyulmuşdur.
- Dövlət əmlakının özəlləşdirilməsinə dair iki dövlət proqramı icra edilərək sərbəst bazar iqtisadiyyatına keçid təmin olunmuşdu.

Lakin həlli zaman və vəsait tələb edən xeyli problem də mövcud idi.

- ATƏT-in Minsk qrupu sülh danışıqları imitasiyası etdiyindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi çözülməmiş qalırdı.
- Məcburi köçkünlər çox çətin və ağır şəraiti olan çadır şəhərciklərində məskunlaşmışdılar.
- Enerji qıtlığı səbəbindən regionlara elektrik enerjisi böyük fasilələrlə verilirdi.
- Sahibkarlıq kifayət qədər inkişaf etməmişdi.
- Yoxsulluq və işsizlik 40-50 faizdən yuxarı idi.
- Azərbaycana qarşı müxtəlif təpkilər və təzyiqlər göstərilirdi.



**Bütün bu problemləri yoluna qoymaqdan ötrü cənab İlham Əliyev qətiyyət və möhkəm iradə ilə işə başladı:**

- Regionların inkişafına dair 4 dövlət proqramı hazırlanaraq uğurla həyata keçirildi.
- Birmənalı şəkildə milli maraqlarımızı təmin edən daxili və xarici siyasət yeridildi.
- Azərbaycanın nəqliyyat və enerji təhlükəsizliyi təmin edildi.
- Sülh danışıqlarında dönməz və qətiyyətli mövqe nümayiş etdirildi, Azərbaycanın maraqlarına uyğun olmayan heç bir sənəd imzalanmadı.
- Öz gücümüz hesabına Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri reallaşdırılaraq istifadəyə verildi.
- "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri işə salındı, Azərbaycan beynəlxalq logistika mərkəzinə çevrildi.
- Ölkədə qazlaşdırma 90 faiz səviyyəsini keçdi, işsizlik və yoxsulluq 4-5 faizə endi.
- 116 yaşayış kompleksi salınaraq məcburi köçkünlərin yaşayış səviyyəsi xeyli yaxşılaşdırıldı.
- Azərbaycanın beynəlxalq mövqeyi xeyli möhkəmləndirildi, siyasi nüfuzu əhəmiyyətli dərəcədə artırıldı.

**Bütün bunlarla bərabər, Prezident İlham Əliyev Qarabağ probleminin həllini bir an belə diqqətdən kənarda qoymadı.**

*Düşmənə dəfələrlə sərt və qəti xəbərdarlığını etdi:*

- Biz bir qarış torpağımızın belə düşmən əlində qalmasına yol verməyəcəyik!
- Biz Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik!
- Biz lazım gəlsə, münaqişəni hərbi yolla həll edəcəyik!

Bütün bu xəbərdarlıqlar adi sözlər deyildi, arxasında gərgin və əməli işlər dayanırdı:

**İlham Əliyev Azərbaycanın sürətli və davamlı inkişafını təmin edərək tarixinin ən qüdrətli dövlətini yaratdı.**

- İdmanı yüksək səviyyəyə qaldıraraq yeni - mənəvi cəhətdən zəngin, vətənpərvər gənc nəsil yetişdirdi.
- Azərbaycan xalqının indiyədək görünməmiş milli birliyinə nail oldu.

*Prezident İlham Əliyev Azərbaycanı davamlı və sürətli şəkildə inkişaf etdirmək, ölkəmizin dünya birliyində layiqli yer tutmasına nail olmaqla yanaşı, baş problemimizin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin uğurlu həllini də bir an belə unutmurdu.*

BU MƏQSƏDLƏ:

- Güclü ordu yaradaraq onu ən müasir silahlarla, strategiya və taktika ilə təmin etdi.
- Dünyanın tanınmış hərbi məktəblərində müasir biliklərə yiyələnmiş zabit kadrları yetişdirdi.
- Xüsusi təyinatlılar, Komando qüvvələri hazırlayaraq onların müntəzəm təlimlər keçirməklə peşəkarlıqlarını yüksəltdi.
- 2016-cı ilin dördgünlük Aprel döyüşlərində yeni yaratdığı ordunun qüdrətini göstərməklə düşmənə son xəbərdarlığını etdi.
- Ermənistanın baş naziri Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" sayıqlamasına "dəmir yumruq"la cavab verərək Qarabağın və Şərqi Zəngəzurun məhz Azərbaycana məxsus olduğunu sübuta yetirdi.













# SÖZÜNÜN SAHİBİ

❖ ❖ ❖

**44 günlük Zəfər müharibəsi İlham Əliyevin fərqli liderliyi ilə yanaşı, böyük sərkərdə məharətini də nümayiş etdirdi:**

- İlham Əliyev XXI əsrin müharibələr tarixində yeni səhifə açdı.
- İlham Əliyev yeni taktika və strategiyaya əsaslanan müasir müharibə nümunəsi ortaya qoydu və dünyanın ən güclü dövlətləri belə bu müharibədən öyrənərək öz ordularında zəruri islahatlar apardılar.
- İlham Əliyev diplomatiya cəbhəsində də qalib gələrək hərbi əməliyyatlar dövründə bütün təsir və təzyiq cəhdlərinə sinə gərdi, Ermənistan öz qoşunlarının Azərbaycan ərazisindən çıxarılması qrafikini təqdim etməyənədək müharibəni dayandırmadı.
- İlham Əliyev informasiya müharibəsinin yeganə qalib qəhrəmanına çevrildi, dünya KİV-i, o cümlədən informasiya agentlikləri və televiziya kanallarına 30-dan artıq müsahibə verərək feyk xəbərləri ifşa etdi, Azərbaycana şər-böhtan atmaq niyyətində olanları yerlərində oturtdu, bu sahədə də fərqli liderlik xüsusiyyətlərini nümayiş etdirdi.
- İlham Əliyev 44 günlük Zəfər müharibəsini qələbə ilə başa çatdırdıqdan, düşməni kapitulyasiya aktını imzalamağa vadar etdikdən sonra çox böyük müdriklik, uzaqgörənlik və dönməz iradəsi sayəsində Azərbaycanın ərazi bütövlüyünü, dövlət suverenliyini və Konstitusiya əsaslarını da bərpa etdi.

*Atdığı bütün addımlarda Azərbaycanın dövlət mənafeyini, Azərbaycan xalqının milli maraqlarını daim uca tutaraq onların sonadək həyata keçirilməsinə nail oldu!*

❖ ❖ ❖

**İlham Əliyevin qlobal liderliyinin təsdiqinə çevrilən çoxsaylı faktlar da mövcuddur!**

*Onların bir qismini diqqətə çəkirik:*

- 155 dövlətin dəstəyi ilə Azərbaycan 2012-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçiləndən sonrakı iki il ərzində cənab İlham Əliyev qurumun iclaslarına uğurla rəhbərlik etdi, həmin dövrdə bir sıra faydalı və səmərəli qərarların qəbuluna nail oldu.
- Qoşulmama Hərəkatına rəhbərliyi dövründə İlham Əliyevin atdığı qətiyyətli addımlar, xüsusən COVID19-un tüğyan etdiyi dövrdə "vaksin millətçiliyi"ni ifşa etməklə inkişaf etməkdə olan dövlətlərə verdiyi cəsarətli dəstək onun beynəlxalq nüfuzunu daha da artırdı, Azərbaycanın bu quruma rəhbərliyi daha iki il uzadıldı.
- Türk Dövlətləri Təşkilatının fəaliyyətinin canlanmasına, qurumun səmərəliliyinin artmasına cənab İlham Əliyevin verdiyi töhfələr hamı tərəfindən etiraf olunur.
- Bir sıra transmilli layihələrin uğurla gerçəkləşdirilməsi sayəsində Orta dəhlizin yaradılması İlham Əliyevin dünyaya bəxş etdiyi ən dəyərli töhfələrdən sayılır.
- I Avropa Oyunlarının, habelə IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsi İlham Əliyevin dünya idmanına, habelə dövlətlərin səmimi əməkdaşlığına dəyərli hədiyyəsi olmuşdur.
- İlham Əliyevin təşəbbüsü və zamanında atdığı addımlar sayəsində "Cənub qaz dəhlizi" işə salınmışdır və bu gün Azərbaycan 12 dövlətə mavi yanacaq ixrac edir.
- İlham Əliyevin artan beynəlxalq nüfuzu sayəsində Azərbaycanın BRİKS-lə və D8-lə əməkdaşlığa başlaması ölkəmizə böyük siyasi və iqtisadi dividendlər gətirəcəkdir.
- Məhz İlham Əliyevin beynəlxalq hörmət və nüfuzu, habelə yüksək təşkilatçılıq bacarığı hesabına dünyanın ən böyük tədbiri sayılan COP29-un ölkəmizdə keçirilməsi, bir sıra mühüm qərarların qəbulu həm də gücümüzün və imkanlarımızın nümayişinə çevrildi.



**Bu gün İlham Əliyev bütün dünyada yeni tipli lider, müdrik və uzaqgörən siyasətçi, mahir diplomat, rəhbərlik etdiyi dövlətdə separatizmin kökünü tamamilə və birdəfəlik kəsən qətiyyətli Sərkərdə kimi qəbul olunaraq sevilir.**

*Onun fəaliyyətinə tanınmış siyasi və dövlət xadimlərinin bir neçəsinin verdikləri qiyməti diqqətə çəkirik:*

SERBİYA PREZİDENTİ ALEKSANDAR VUÇİÇ: *"İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir. Avropada necə dəyişikliklərin baş verməsi inanılmazdır. Adətən onlar onun üçün vaxt tapa bilmirdilər, indi isə bütün vaxtlarını ona ayırırlar, çünki onların Azərbaycan qazına və Azərbaycanın təklif edə biləcəyi hər şeyə ehtiyacları olduğundan o, orada çox sevilir. Lakin mən bilirəm ki, o, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm, mən bir az paxıllıq edirəm. Onlar mənə yalnız Kosovo ilə bağlı məsələ olanda, Kosovo ilə bağlı nəyə isə ehtiyacları olanda, məni təhdid etmək üçün zəng vururlar. Lakin Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Onlar ondan hər şeyi xahiş edirlər".*

*"Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır".*

*"Onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir".*

MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBAN: *"Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meyilliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm".*

GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ KOBAXİDZE: *"Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz. Bu gün burada olmaq məndə böyük şərəf və məmnunluq doğurur".*

Bu gün Cənubi Qafqazın dünya üçün faydalı sülh və əməkdaşlıq məkanına çevrilməsində Azərbaycan Prezidentinin xidmətləri ölçüyəgəlməz dərəcədə möhtəşəmdir.

Azərbaycana rəhbərliyi dövründə İlham Əliyevin ölkəmiz, habelə dünya üçün etdikləri faydalı və dəyərli işlər siyasətdə və idarəçilikdə şəxsiyyət faktorunun necə mühüm əhəmiyyət daşıdığına da əyani nümunədir.

❖ ❖ ❖

*Dövlətə rəhbərlik edən hər bir şəxs lider səviyyəsinə yüksələ bilmir.*

*Çünki liderlik başqa xüsusiyyətlər və tələblər daşıyıcısı olur.*

**Həqiqi lider ilk olaraq xalqı tərəfindən sevilir və qəbul edilir.**

**Həqiqi lider həm də dünya tərəfindən, dünya liderləri tərəfindən qəbul və etiraf olunur.**

*Lider təkcə dövləti inkişaf etdirən və təlatümlərdən qoruyan deyil...*

*Həqiqi və fərqli liderlər həm də yeni reallıqlar yaradanlardır!*

Ulu Öndər Heydər Əliyev qurtuluş missiyasını yerinə yetirərək təkcə Azərbaycanı bir dövlət kimi məhvolmadan, parçalanmadan xilas etmədi...

**O həm də müasir Azərbaycan dövlətinin yaradıcısı, qurucusu və memarı kimi xalqın şərəf salnaməsinə öz adını əbədi həkk etdirdi.**

Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə tarixinin ən qüdrətli Azərbaycanını yaratmadı...

*O həm də Azərbaycanın ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa və təmin edərək Azərbaycanı qalib dövlətə, Azərbaycan xalqını isə qalib xalqa çevirdi.*

**Üstəlik, Cənubi Qafqazda yeni reallıqlar yaratdı.**

Budur əsl Liderlik!

Budur fərqli Liderlik!

**Bəxtiyar SADIQOV**





